*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 yanvar 2017-ci il № 6 (2123) Qiyməti 25 qəpik


# Azərbaycan Ordusu döyüş qabiliyyəti və hərbi-texniki təminat baxımından dünyanın güclü orduları sırasındadır

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı



- Əziz hərbçilər.

İlk növbədə, sizi yeni inşa olunmuş hərbi şəhərciyin açılışı münasibətilə təbrik etmək istəyirəm. Ərazisi 42 hektar olan bu şəhərcik ən yüksək standartlara cavab verir. Şəhərciklə tanış olarkən görürəm ki, xidmət aparmaq, yaşamaq üçün bütün şərait var. Ən müasir standartlar tətbiq olunub, xidmət şəraiti ən yüksək səviyyədədir. Hesab edirəm ki, bu hərbi şəhərcik dünya miqyasında nümunəvi hərbi şəhərcikdir.

Bu şəhərciyin inşa edilməsi bir daha onu göstərir ki, Azərbaycanda ordu quruculuğuna çox böyük diqqət yetirilir. Son bir neçə il ərzində iyirmidən çox hərbi şəhərcik tikilib və əsaslı şəkildə təmir edilib. Bu gün hərbi hissələrimizin mütləq əksəriyyəti deməl olar ki, bu səviyyədədir. Ümid edirəm ki, növbəti bir-iki il ərzində yararsız vəziyyətdə bir dənə də hərbi infrastruktur olmayacaq.

Ordu quruculuğu prosesi Azərbaycanda dövlət siyasətidir. Hərbçilərin məişət problemləri də öz həllini tapır. Bildiyiniz kimi, iyirmi il qüsursuz xidmət göstərən hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir, bu proses artıq geniş vüsət alır. Xidmət aparmaq üçün bütün lazımi tədbirlər görülür. Bir sözlə, hərbçilərimizin həm xidmət, həm də məişət şəraiti daim diqqət mərkəzindədir.

Bizim ordumuz güclü ordular sırasındadır. Son illər ərzində ordumuzun maddi-texniki təminatı böyük dərəcədə inkişaf edib. Bu gün təminat-təchizat baxımından yüksək səviyyəyə malik olan Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Biz son illər ərzində bir çox ölkələrdən ən müasir texnika, silah-sursat almışıq ki, bu texnika və silahlar bu gün bizim ordu potensialımızı gücləndirir. Bir neçə ölkədən alınmış onlarla döyüş təyyarəsi, 100-dən çox hərbi və hərbi nəqliyyat vertolyotu, hava hücumuna qarşı müxtəlif müasir sistemlər bizim müdafiə gücümüzü artırır. Müxtəlif ölkələrdən alınmış ən müasir tanklar, zirehli maşınlar, artilleriya qurğuları da düşmənin istənilən hədəfini yüksək dəqiqliklə və böyük dağıdıcı qüvvəsi ilə məhv edə bilər. Ən müasir pilotsuz uçuş aparatları, həm kəşfiyyat, həm döyüş üçün digər texnikalar alınır və bu proses bu gün də davam edir.

Bir daha qeyd etmək istəyirəm ki, ordu quruculuğu kompleks şəkildə öz həllini tapır. Həm hərbçilərin xidmət, məişət şəraiti, döyüş texnikası ilə təminat, eyni zamanda, ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artmışdır. Ordumuzda ruh yüksəkliyi var, vətənpərvərlik hissləri çox yüksək səviyyədədir. Ordumuzun döyüş qabiliyyəti bu gün dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Müxtəlif təhlillər aparılır, hərbi mütəxəssislər öz fikirlərini söyləyirlər. Biz bunu bilirik, dünya da bilir ki, həm döyüş qabiliyyəti, həm hərbi-texniki təminat baxımından bu gün Azərbaycan Ordusu, sözün əsl mənasında, güclü ordular sırasındadır.

Bütün bu nailiyyətləri biz özümüz əldə etmişik, öz hesabımıza, güclü iqtisadiyyat hesabına. Çünki əgər güclü iqtisadiyyat olmasaydı, biz bütün bu işləri görə bilməzdik. Yaradılan bu hərbi şəhərcik bu gün bizim həm ordumuzun, həm dövlətimizin gücünü göstərir. Bu gün dünyada maliyyə-iqtisadi böhran davam edir. Ancaq buna baxmayaraq, biz bu məqsədlər üçün böyük vəsait ayırırıq və ayıracağıq. Bunu təmin edən güclü iqtisadiyyatdır. İqtisadiyyatda aparılan işlər, islahatlar bizim ordumuzu, dövlətimizi gücləndirir. Azərbaycan dünyada nadir ölkələrdəndir ki, öz hesabına yaşayır, heç kimdən asılı deyil, heç kimin maliyyə yardımına ehtiyac duymur. Öz hesabımıza yaşayırıq və ildən-ilə daha yaxşı yaşayırıq.

Bizim hərbi hissələrimizin vəziyyəti bir neçə il bundan əvvəl tam fərqli idi. Mən xüsusi göstəriş vermişdim ki, bu vəziyyət təhlil edilsin, mənə məruzə olunsun və tədbirlər görülsün. Yadımdadır, bir neçə il bundan əvvəl müxtəlif bölgələrimizdə yerləşən hərbi hissələrin fotoşəkilləri mənə təqdim ediləndə, əlbəttə ki, mənzərə çox acınacaqlı idi. Yarıdağılmış binalar, yararsız vəziyyətdə olan kazarmalar, ordumuzun ərzaq təminatı çox aşağı səviyyədə idi. Ona görə dərhal göstəriş verdim və bu sahədə köklü dəyişikliklər baş verdi. Bu gün Müdafiə Nazirliyinin rəhbərləri bütün bu işləri yüksək səviyyədə təmin edirlər. Yəni, bu gün həm təminat, həm xidmət baxımından Azərbaycan Ordusu dünyada nümunəvi ordular sırasındadır.

O ki qaldı ordumuzun döyüş qabiliyyətinə, biz bilirdik və müntəzəm olaraq, bu istiqamətdə işlər aparılırdı. Həm nizam-intizam, həm döyüş qabiliyyəti, həm hazırlıq və bütün bu görülmüş işlər özünü lazım olan vaxtda göstərdi. Keçən ilin aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq, Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsi işğaldan azad edildi. O ərazilərdə Azərbaycan bayrağı dalğalanır. Minlərlə hektar torpaq işğaldan azad edildi. On minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. O torpaqlarda təmizlik işləri aparılır və yaxın gələcəkdə məcburi köçkünlər o ərazilərə qayıdacaqlar.

Aprel döyüşləri bizim böyük hərbi qələbəmizdir. Uzun illər Ermənistan öz ordusu haqqında miflər yaradırdı, uydurmalar irəli sürürdü ki, guya bunların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, kimin ordusu yenilməzdir. Ermənistan öz acı məğlubiyyətini etiraf etmək istəməsə də məcburdur ki, etiraf etsin. Məhz aprel döyüşlərindən sonra Ermənistanın müdafiə naziri başda olmaqla bir çox yüksək vəzifəli hərbçilər öz vəzifələrindən kənarlaşdırıldı. Bu, aprel döyüşlərinin nəticəsi idi. Bizim əsgərlərimiz, zabitlərimiz qəhrəmanlıq göstərdilər. Biz şəhidlər də verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq torpağımızı qoruduq, torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdik. Aprel döyüşləri hərbi kitablara salınmalıdır. Azərbaycan Ordusu həm hərbi peşəkarlıq, həm qəhrəmanlıq göstərmişdir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Ordusu döyüş qabiliyyəti və hərbi-texniki təminat baxımından dünyanın güclü orduları sırasındadır

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin çıxışı



(Əvvəli 1-ci səhifədə)

Bütün bu uğurların təməlində düşünülmüş siyasət dayanır. Ordu quruculuğu prosesi Azərbaycanda ardıcıllıqla icra edilir. Həm təminat, təchizat, müasir texnikanın alınması, döyüş qabiliyyətinin artırılması, eyni zamanda, bizim hərbi uğurlarımız siyasi uğurlarla da tamamlanır. Biz bu gün özümüzü beynəlxalq aləmdə çox etibarlı tərəfdaş kimi təqdim etmişik. Bizim dünyadakı dostlarımızın sayı getdikcə artır. Bizim haqq işimiz barədə dünya ictimaiyyəti daha da dolğun məlumat əldə edir.

Bu gün heç kimə sirr deyil ki, bizim işimiz haqq işidir və biz öz torpağımız uğrunda vuruşuruq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda yaşayıb-yaratmışdır. Orada yerləşən tarixi, dini abidələrimiz bizim qədim mədəniyyətimizi əks etdirir. Təkcə Dağlıq Qarabağ deyil, indiki Ermənistanın ərazisi tarixi Azərbaycan torpağıdır. Əgər statistikaya nəzər salsaq görmək olar ki, XX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin yüzdə 70-i azərbaycanlılar idi. İndiki Ermənistanın bir çox toponimləri Azərbaycan mənşəlidir. İrəvan, Zəngəzur, Göyçə bizim tarixi torpaqlarımızdır. Bizim torpaqlarımızda erməni dövləti qurulubdur. Özü də əfsuslar olsun ki, bizim öz dəstəyimizlə. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarananda onun ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək qərarı idi. Yəni, bu, tarixdir, yaxın tarixdir. Bu tarix bir daha onu göstərir ki, Azərbaycan xalqı bu ərazilərdə əsrlər boyu yaşayıb və yaşamalıdır.

O ki qaldı, Dağlıq Qarabağ əhalisinə, onu da tarixçilər və bu məsələ ilə məşğul olanlar yaxşı bilirlər. Əlbəttə, Azərbaycan xalqı da bilir ki, XIX əsrin 20-ci illərində Dağlıq Qarabağa İrandan və Şərqi Anadoludan kütləvi surətdə erməni əhalisi köçürülmüşdür. O məqsədlə köçürülmüşdür ki, həmin ərazidə milli və dini tərkib dəyişdirilsin və məhz buna görə XX əsrin 20-ci illərində Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Yəni, bu, tarixdir. Tarix və ədalət bizim tərəfimizdədir. Yenə də deyirəm, bu, bizim haqq işimizdir, bu, bizim torpağımızdır və biz bu torpağa qayıtmalıyıq.

O ki qaldı beynəlxalq hüquqa, beynəlxalq hüquq da bizim mövqeyimizi müdafiə edir. Bir çox mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərar və qətnamələr qəbul etmişdir. Xüsusilə BMT Təhlükəsizlik Şurası - dünyanın ən ali orqanı 4 qətnamə qəbul etmişdir və bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni işğalçı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Əgər kimsə bunu unudubsa, biz bunu yada sala bilərik. Bax, budur, bu qətnamələrin əsas mahiyyəti. Ancaq Ermənistan buna məhəl qoymur və işğalçı ölkəyə heç bir təzyiq göstərilmir. BMT Təhlükəsizlik Şurası ilə yanaşı, digər beynəlxalq təşkilatlar - İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası oxşar qərar və qətnamələr qəbul etmişdir. Onlar da kağız üzərində qalıb. Bu, ədalətsizlikdir, bu, beynəlxalq normaların kobudcasına pozulması deməkdir. Ancaq yenə də işğalçı dövlətə heç bir təzyiq göstərilmir. Bu, ikili standartlar siyasətidir. Əfsuslar olsun ki, bizim ölkəmiz uzun illər ikili standartlarla üzləşir. Bəzi yerlərdə BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir, bizə gəldikdə isə 20 ildən çoxdur ki, bu qətnamələr kağız üzərində qalır və onları qəbul edənlər də buna biganə qalırlar. Belə olan halda Azərbaycan öz gücünü artırmalıdır və artırır.

Biz hərbi gücümüzü artırmışıq və artıracağıq. Siyasi addımlar atılacaq ki, beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı öz mövqeyini daha da geniş ifadə etsin. Biz öz iqtisadi gücümüzü artıracağıq və bütün böhranlara baxmayaraq, ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də təmin ediləcəkdir. Bu gün də bizim büdcə xərclərimizin strukturunda hərbi xərclər birinci yerdədir. Bizim başqa ehtiyaclarımız da var. Sosial məsələlərin həlli, infrastruktur layihələrinin icrası, digər vacib məsələlər var. Onlar da öz həllini tapır. Amma, ilk növbədə, ordu quruculuğudur. İlk növbədə, ordumuzun ehtiyacları təmin edilməlidir və biz gücləndikcə, əlbəttə ki, münaqişənin həllini yaxınlaşdıracağıq.

Münaqişənin həlli isə çox sadədir. Birincisi, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Biz heç vaxt Azərbaycan ərazisində ikinci qondarma erməni dövlətinin yaranmasına icazə verməyəcəyik. Heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməyəcək. Əgər kimsə bunu gözləyirsə, qoy, əbəs yerə gözləməsin. Bu, olmayacaq! Dağlıq Qarabağ Azərbaycan torpağıdır, həm tarix, həm bütün dünya birliyi bunu belə qəbul edir. Azərbaycan müstəqilliyə qovuşanda, vahid dövlət kimi BMT-yə üzv olanda Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi qəbul edilmişdir. Yəni, bu məsələnin həlli bundan ibarətdir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində göstərildiyi kimi, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Azərbaycan vətəndaşları, məcburi köçkünlər öz doğma torpaqlarına qayıtmalıdırlar.

O ki qaldı Dağlıq Qarabağın gələcək statusuna, bu status ancaq vahid Azərbaycan dövləti çərçivəsində mümkün ola bilər. Münaqişənin həlli bundan ibarətdir və Ermənistan rəhbərliyi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olacaq. Ərazi bütövlüyünün təmin olunması, işğala son qoyulması bu münaqişənin həlli üçün əsas amillərdir. Bu məqsədlərə nail olmaq üçün bir daha demək istəyirəm, daha da güclü olmalıyıq və biz bu gün dünya miqyasında böyük təqdirlə qarşılanan güclü Azərbaycan dövləti yaradırıq. Biz öz azad gələcəyimizi qururuq, müstəqil həyatımızı qurmuşuq. Biz 25 ildir ki, müstəqil dövlətik və bir daha demək istəyirəm, heç kimdən heç bir yardım almadan, bəzi başqa ölkələr kimi heç kimin ətəyindən yapışmadan bunu əldə etmişik. Bu gün açığını deməliyik, Ermənistan müstəqil dövlət kimi dünya xəritəsində sadəcə olaraq formal mövcuddur. Ermənistan asılı ölkədir, öz gələcəyini özü müəyyən edə bilmir. İşğalçı siyasəti onları bax, bu vəziyyətə gətirib çıxarıbdır. Onların vəziyyətdən yeganə çıxış yolu qonşularla münasibətləri bərpa etməkdir. Bunun üçün isə işğala son qoyulmalıdır.

Biz isə gələcəkdə daha da güclü dövlətə çevriləcəyik. Həm iqtisadi potensialımız, hərbi gücümüz artacaq. Əhalimiz artır, artıq Azərbaycan əhalisi 10 milyona yaxınlaşır və şübhə yoxdur ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu şərtləndirən bir çox amillər var, onlardan birincisi güclü Azərbaycan Ordusudur və bu, bizim əsas vəzifəmizdir, əsas məqsədimizdir.

Bu gün bu hərbi şəhərciyin açılışı bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Hətta ölkə iqtisadiyyatı üçün ən ağır il olan 2016-cı ildə də biz uğurlu inkişaf dinamikasını saxlamışıq və böyük sərmayələr qoymuşuq. Son illərdə artıq 20-dən çox hərbi şəhərcik tikilib. Lakin digər yerlərdə, müxtəlif bölgələrdə hərbi şəhərciklərin tikilməsi də nəzərdə tutulur.

Mən ordumuzun bütün şəxsi heyətini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm, ordumuza yeni uğurlar arzulayıram. Sağ olun.

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin "N" hərbi hissəsinin yeni hərbi şəhərciyinin açılışında iştirak edib

## Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun çıxışı

- Möhtərəm Prezident, cənab Ali Baş Komandan.

2016-cı ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin xidməti döyüş fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Ali Baş Komandanın sərəncam və göstərişləri, o cümlədən Müdafiə nazirinin əmr və direktivləri əsasında həyata keçirilib.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Ordusu bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə uğurla inkişaf etdirilir.

Ali Baş Komandanın Silahlı Qüvvələrdə bütün istiqamətlərdə həyata keçirdiyi islahatlar ordunun döyüş qabiliyyətini artırıb, nizam-intizamı və hərbi qulluqçuların sosial bazasını gücləndirib.

Yeni və müasir texnologiyaların tətbiqi ilə orduda yüksək səviyyəli idarəçilik mexanizmi yaradılıb. Birlik, birləşmə və hərbi hissələrin operativ idarə olunması məqsədilə avtomatlaşdırılmış Komanda İdarətmə məntəqələri qurulub. Bu iş bu gün də davam etdirilir. Ordunun yeni növ silah və döyüş texnikası ilə təmin edilməsi qoşunların manevr və zərbə qabiliyyətini artırıb. Döyüş qabiliyyətini təmin edən hərbi vəzifələr tank və döyüş maşınlarının ekipajları, artilleriya və raket qurğularının heyətləri müddətdən artıq həqiqi hərbi



xidmət hərbi qulluqçuları ilə komplektləşdirilib.

Son illər ərzində Raket və Artilleriya Qoşunlarının yeni, müasir silah və texnika, atəşi idarəetmə sistemləri ilə təminatı bu qoşun növünün zərbə gücünü kifayət qədər artıraraq, düşmənin bütün hərbi infrastruktur obyektlərini məhv etmək imkanlarını genişləndirib.

Hərbi Hava Qüvvələrinin silahlanması yüksək səviyyədədir və qoşunlar qarşıda duran vəzifələri həll etmək, o cümlədən həm havadan, həm də qurudan istənilən hücumun qarşısını almaq, düşmənin ön xəttindəki və onun müdafiəsinin dərinliyindəki mövqelərinə havadan zərbə endirmək qabiliyyətinə malikdir.

Hərbi Dəniz Qüvvələrinin infrastrukturunun inkişafında da böyük işlər görülüb. Bu qoşun növünün döyüş qabiliyyətinin artırılması üçün lazımi tədbirlər planlaşdırılıb və həyata keçirilir.

Cənab Ali Baş Komandan, ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması məqsədilə Sizin göstərişinizə əsasən, müxtəlif qoşun növlərinin iştirakı ilə döyüş atışlı irimiqyaslı təlimlərin keçirilməsi şəxsi heyətin idarəçilik və döyüş qabiliyyətinin artırılmasına, atəşin peşəkarlıqla idarə olunmasına imkan yaradıb.

2016-cı ilin aprel ayında Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətini nümayiş etdirərək on minlərlə kvadratmetr torpaqlarımızı, o cümlədən strateji yüksəklikləri azad edib və hazırda cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir.

Silahlı Qüvvələrimizin aprel döyüşlərində nümayiş etdirdiyi döyüş ruhu və qabiliyyəti orduda keçirilən islahatların yüksək göstəricisidir. Silahlı Qüvvələrimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə tam hazırdır və buna qadirdir.

Cənab Ali Baş Komandan, 2017-ci ildə Silahlı Qüvvələrin qarşısında duran əsas vəzifələr işğal altındakı torpaqlarımızın azad edilərək ərazi bütövlüyümüzün bərpa olunması, döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, qoşunların operativ idarə olunması, silahlanmaya yeni qəbul edilmiş hərbi texnika və digər döyüş vasitələrinin dərindən öyrənilməsi və tətbiqi, şəxsi-heyətin mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsindən ibarətdir.

Cənab Prezident, Sizin yüksək diqqət və qayğınız nəticəsində ordumuzun döyüş qabiliyyəti yüksəlib, hərbi qulluqçular və onların ailə üzvlərinin sosial-məişət şəraitləri yaxşılaşıb və şəxsi heyətin təminatı yüksək səviyyəyə çatdırılıb.

Ölkəmizin müxtəlif bölgələrində, xüsusilə də cəbhəboyu zonada yeni inşa edilmiş müasir hərbi şəhərciklər istifadəyə verilir, hərbi qulluqçular xidməti və daimi mənzillərlə təmin edilirlər.

İcazə verin, bütün Silahlı Qüvvələrin şəxsi heyəti adından orduya göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımı bildirim.

Silahlı Qüvvələr Sizin əmr və göstərişlərinizi hər an yerinə yetirməyə hazırdır.

---



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 23-də Müdafiə Nazirliyinin Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində "N" hərbi hissəsinin yeni inşa edilmiş hərbi şəhərciyinin açılışında iştirak edib.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı İlham Əliyev əvvəlcə Azərbaycan Ordusunun inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu.

Yeni hərbi şəhərcik 42 hektar ərazidə yerləşir. Burada tikinti işləri 2014-cü ilin mayında başlanıb, ötən ilin sonunda isə yekunlaşıb. Şəhərcikdə zabit, gizir və çavuşlar üçün 9 yaşayış binası inşa edilib. Onlardan 4-ü ailəli, 5-i isə subay hərbi qulluqçular üçündür. Ərazidə ümumilikdə 13 əsgər yataqxanası tikilib. Hərbi şəhərcikdə inzibati, xidməti və texniki binalar da inşa edilib.

Ali Baş Komandan, Prezident İlham Əliyev hərbi şəhərciyin rəmzi açılışını bildirən lenti kəsdi.

Hərbi şəhərciyin qərargah binası müasir səviyyədə yaradılıb. İkimərtəbəli qərargah binasının foyesində ulu öndər Heydər Əliyevin və dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdikləri diqqəti əks etdirən fotostend yaradılıb. Burada hərbi hissə növbətçisi, istirahət, qonaq və digər xidməti otaqlar var. Qərargah binasında Şərəf otağı, brifinq və akt zalları da hərbçilərin ixtiyarına verilib. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq və istirahət etmək üçün hərtərəfli şərait yaradılıb.



Hərbi şəhərcikdə ailəli hərbi qulluqçuların yerləşməsi üçün iki və üçotaqlı mənzillərdən ibarət yaşayış binaları inşa edilib. Binalardakı mənzillər yumşaq və bərk mebellər, zəruri inventar və televizorla təmin olunub. Bütün binalara su, elektrik, telefon, internet və televiziya kabeli xətləri çəkilib.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb.

**(Ardı 4-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin “N” hərbi hissəsinin yeni hərbi şəhərciyinin açılışında iştirak edib

(Əvvəli 3-cü səhifədə)



Ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş 76 çarpayılıq, ikimərtəbəli tibb məntəqəsi də tikilib. Tibb məntəqəsinin binasında Ulu Öndərin və dövlətimizin başçısının hərbi qulluqçularla görüşlərini əks etdirən fotolar sərgilənir. Burada UZİ, elektrokardioqram, rentgen, diaqnostika, lor, oftalmoloji, stomatoloji, fizioterapiya kabinetləri, laboratoriya yaradılıb. Bu kabinetlərdə müasir tibb cihazları quraşdırılıb. Bu isə tam imkan verir ki, şəxsi heyətə ixtisaslı tibbi yardım göstərilsin. Tibb məntəqəsinin palataları müasir səviyyədədir. Binada hərbi tibbi hazırlıq sinfi də yaradılıb.

Bu cür hərbi şəhərciklərin inşası bir daha sübut edir ki, ordu quruculuğu sahəsində aparılan islahatlar kompleks şəkildə həyata keçirilir. Bütün bunlar isə Azərbaycan Ordusunun qüdrətini artırır, hərbi sahənin maddi-texniki bazasını möhkəmləndirir.

Hərbi şəhərcikdə bütün avadanlıqla təchiz edilmiş yeməkxana inşa edilib. Dövlətimizin başçısına burada hərbi qulluqçuların istifadə etdikləri ərzaqlar barədə məlumat verildi. 1790 yerlik yeməkxanada əsgər və zabitlərin dolğun qidalanması üçün hərtərəfli şərait vardır. Burada mətbəx və təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Yeməkxana kompleksində çörək istehsalı sahəsi də fəaliyyət göstərir. Bu istehsal sahəsi hərbi hissənin şəxsi heyətini çörək və şirniyyat məmulatları ilə tam təmin etmək imkanına malikdir.

Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Dövlətimizin başçısı hərbi hissənin əsgər yataqxanasına da baxdı. Burada əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait var. Yataqxanada ideoloji otaq, dəftərxana və digər inzibati otaqlar yaradılıb.



Prezident İlham Əliyevə hərbi hissədəki texnika barədə də məlumat verildi. Bu gün ordumuzun balansında dünyanın ən müasir silah-sursatı və hərbi texnikası var. Son illərdə dövlətimizin başçısı, Ali Baş Komandanın diqqəti sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Məlumat verildi ki, hərbi hissədə zirehli avtomobil və texnikaların yerləşdirilməsi üçün xüsusi yerlər inşa edilib. Hərbi texnika üçün parkın ərazisində yeni avadanlıqla təchiz edilmiş texniki nəzarət, qulluq, təmir, yanacaqdoldurma və digər məntəqələr tikilib.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, eləcə də hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, təhsil və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədilə hərbi şəhərciyin ərazisində 528 yerlik klub inşa edilərək lazımi avadanlıqla tam təchiz olunub. Bundan başqa, ərazidə hərbi qulluqçuların peşə və ixtisas hazırlığının təşkili məqsədilə müvafiq



avadanlıq və qurğularla təchiz edilmiş 2 tədris korpusu inşa olunub. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün 3 sıra meydanı salınıb. Şəhərcikdə qarovul xidmətinin təşkili və aparılması məqsədilə qarovul şəhərciyi və qarovul evi inşa edilib.

Hərbi şəhərcik yaradılarkən hərbi qulluqçuların idmanla məşğul olmaları diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə burada minifutbol, basketbol, voleybol, həndbol meydançaları, maneələr və qaçış zolaqlarının daxil olduğu idman-məşq qurğuları sahəsi yaradılıb.

Hərbi hissədə müasir avadanlığın quraşdırıldığı hamam-camaşırxana-qazanxana kompleksi fəaliyyət göstərir. Burada, həmçinin bərbərxana və dərzi otaqları da var. Hərbi hissənin isti su təchizatını təmin etmək və istiliyə ehtiyacını ödəmək üçün müasir tipli qazanxanada suqızdırıcı qurğular quraşdırılıb. Şəhərcikdə bir buxar qazanxanası, iki transformator yarımstansiyası və biotəmizləyici su stansiyası da inşa edilib. Ərazidə həcmi 500 kubmetr olan ehtiyat və yanğın əleyhinə tədbirlər üçün nəzərdə tutulan su anbarları da yaradılıb.

Hərbi şəhərcikdə yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı hərbi qulluqçularla görüşdü.

## Hərbi qulluqçumuzun nəşinin geri qaytarılması məsələsi müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, yanvarın 23-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi səfir Anjey Kasprşiklə görüşüb.

Görüşdə qoşunların qarşıdurma xəttində son vəziyyət və atəşkəs rejiminin pozulması halları müzakirə olunub.

Müdafiə naziri keçən ilin dekabrın 29-da dövlət sərhədində düşmən təxribatının qarşısı alınarkən şəhid olmuş əsgər Qurbanov Çingiz Salman oğlunun nəşinin geri qaytarılması ilə bağlı konkret və daha ciddi tədbirlərin görülməsinin zəruriliyini qonağın diqqətinə çatdırıb.

Səfir A.Kasprşik öz növbəsində qısa müddət ərzində bu istiqamətdə əlavə tədbirlərin görüləcəyinə və məsələnin tezliklə həll olunacağına əminliyini bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Dövlət sərhədində Ermənistana məxsus PUA məhv edilib

Yanvarın 22-si gündüz saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimizin sayıqlığı nəticəsində vaxtında aşkar olunaraq atəşlə məhv edilib.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***<u>24 yanvar 2017-ci il.</u>***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Qızılhacılı, Köhnəqışlaq kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Koxanəbi və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Qaraqaşlı, Cəvahirli, Sarıcalı, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Həzi Aslanov - 107*

# Azərbaycanı dünyaya tanıtmış qəhrəman

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun xatirəsi Silahlı Qüvvələrimizdə geniş qeyd olunur.*





Yanvarın 24-də Müdafiə Nazirliyinin təşkilatçılığı ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun xatirə tədbiri Şəhidlər xiyabanında yerləşən məzarı önündə də keçirilib.

Tədbirdə zabitlər, əsgərlər, kursantlar, ictimaiyyət nümayəndələri və qəhrəmanın ailə üzvləri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları qəhrəmanın məzarı önünə gül dəstələri qoyaraq, xatirəsini dərin ehtiramla anıblar.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək xalqımızın faşizm üzərində qələbənin qazanılmasına verdiyi töhfələrdən danışdı. O bildirdi ki, Azərbaycan xalqının qəhrəmanlıq tarixində xüsusi yer tutan sərkərdələrimizdən söz düşəndə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun adı iftixarla çəkilir. "Həzi Aslanov İkinci Dünya müharibəsi cəbhələrində hünər və rəşadət nümunələri göstərmiş azərbaycanlılardan biridir. Ümummilli liderimiz Heydər Əliyev qeyd edirdi ki, Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. Onun əsl sərkərdələrə xas olan xarakteri məşhur Sovet hərb xadimlərinin diqqətini cəlb etmişdi. O, alay komandiri olan zaman tabeliyində olan şəxsi heyətin dərin hörmətini qazanmışdı və bu alaya tezliklə qvardiya alayı adı verilib".

General təəssüf hissilə bildirdi ki, Həzi Aslanova zamanında layiqli qiymət verilməyib. Yalnız ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti və təşkilatçılığı sayəsində onun misilsiz xidmətləri araşdırılıb. Aparılan gərgin tədqiqatlardan sonra həmyerlimizə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

- Azərbaycanın bugünkü gəncləri məşhur sərkərdə Həzi Aslanovun qısa, lakin şərəfli ömür yolundan nümunə götürməlidir, - deyə general çıxışında bildirdi. - Onun əsl komandirə xas olan vacib keyfiyyətləri gələcəyin zabitləri olacaq kursantlarımız üçün ən dəyərli örnəkdir. Gərək hərbi peşəni seçən, zabit olmağı düşünən gənc nəsil Həzi Aslanov kimi qəhrəmanları özlərinə ideal sərkərdə seçsin.

İdarə rəisi əminliklə vurğuladı ki, Həzi Aslanov kimi məşhur sərkərdənin Vətənə həsr olunan ömür yolu təkcə gənc nəsillər üçün deyil, bu gün yüksək postları tutan hərbçilərimiz üçün də əsl nümunə, örnəkdir.

"Ötən ilin aprelində düşmənin cəbhə xəttində törətdiyi təxribatların qarşısının alınmasında şücaət göstərən bir çox zabitlərimiz xalqımızın, millətimizin qəhrəmanlıq ənənələrinə sədaqətli olduqlarını nümayiş etdirdilər. Həzi Aslanov kimi qəhrəmanların davamçıları kimi yetişdiklərini sübuta yetirdilər. Onlar da məhz Həzi Aslanov kimi əsgərinin qayğısına qalan, hər addımda əsgərini düşünən əsl komandirlər idi. Şübhə etmirəm ki, bu gün zabit peşəsini seçən gənclərimizin arasında da Həzi Aslanovun davamçıları olan igid, vətənpərvər oğullar yetişəcəkdir. Həzi Aslanovun xatirəsi xalqımız tərəfindən həmişə əziz tutulub, yad edilib və nəsillər ötdükcə yad ediləcəkdir."

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov da qeyd etdi ki, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov bütün qəhrəmanlığı ilə Azərbaycan zabiti adına böyük şan-şöhrət qazandırdı. "Biz zabitlər bu gün də onun adı ilə qürur duyuruq. Onun haqqında ədəbi-bədii əsərlər yazılıb, filmlər çəkilib. Həzi Aslanovun keçdiyi döyüş yolu daim öyrənilməlidir. Yenilməz sərkərdənin sadiq davamçıları olaraq torpaqlarımızı düşməndən azad etməliyik.”

Qəhrəmanın ailə üzvləri adından çıxış edən polis mayoru Emin Aslanov anım tədbirinin keçirilməsində əməyi keçən hər kəsə, dövlətimizin rəhbəri, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirdi.

* * *

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə əfsanəvi qəhrəmanın ildönümünə həsr edilmiş tədbir keçirilib.

Zabit, gizir, çavuş və kursant heyətinin iştirak etdiyi tədbir açıq elan edildikdən sonra ümummilli liderimiz Heydər Əliyevin, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın suverenliyi və azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət himni səsləndirilib.

Sonra görkəmli sərkərdəyə həsr olunan film nümayiş etdirilib.

İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə xalqımızın müstəsna xidmətləri olmuşdur. Bu müharibənin tərkib hissəsi olan Böyük Vətən müharibəsi cəbhələrində Azərbaycanın igid oğul və qızları elə ilk gündən hünər və rəşadət göstərərək adlarını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə həkk etdirmişlər.

Azərbaycanlı qəhrəmanlardan danışarkən dərhal gözlərimiz önündə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun surəti canlanır.



Mərkəzi Zabitlər Evinin mədəni-kütləvi iş bölməsinin müdiri Gülxar Məmmədova tank qoşunları general-mayoru Həzi Aslanovun həyatı və döyüş yolu barədə məruzəsində qəhrəmanın uşaqlıq və məktəb illərindən danışaraq qeyd etdi ki, Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində anadan olub. “O, ibtidai təhsilini bu şəhərdə alıb. 13 yaşında atasını itirən Həzi Aslanov kərpic zavodunda işləməyə başlayır. Həzi Aslanov savadını artırmaq üçün kursu bitirir və Lənkəranda məktəblərin birində pioner baş dəstə rəhbəri işləyir. 1924-cü il oktyabrın 1-də Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilir. 1929-cu ilin avqustunda Bakıya qayıtdıqdan sonra Zaqafqaziya Hərbi Dairəsi Hərbi Şurasının əmri ilə Borisoqlevski-Leninqrad süvari məktəbinə göndərilir. Orduda komandir olmaq arzusu qarşısıalınmaz bir istəklə Həzinin varlığına hakim kəsilmişdi. Bununla yanaşı, o, yaxşı bilirdi ki, məqsədinə çatmaq üçün gərgin zəhmət, möhkəm iradə tələb olunur. Beləliklə, hərb sənətinə bütün varlığı ilə bağlanan Həzi hərbi texnikaların incəliklərini dərindən öyrənirdi".

Məruzəçi qeyd etdi ki, 1939-cu ildə Sovet-Fin müharibəsi başlayan kimi könüllü olaraq Həzi Aslanov Kareliyaya yollanır və döyüşlərdə böyük rəşadət göstərir. “Ona mayor rütbəsi verilir.” Faşistlər Sovet İttifaqına basqın edərkən Həzi Aslanov Ternopol vilayətində idi. Aslanovun döyüşçüləri hitlerçilərin ilk zərbələrini dəf etmiş və igidliklə vuruşaraq, düşmənə böyük zərbələr endirmişlər. 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli döyüşçülərinə qarşı Donbas ətrafında özünəməxsus döyüş taktikasını işlədərək düşmənin ağır tələfat verməsinə nail olur.

Generalın Stalinqrad vuruşmalarında cinahlardan zərbəsi onu hərb elminin zirvələrinə yüksəltdi. 31 dekabr 1942-ci ildə 55-ci tank alayının komandiri podpolkovnik Həzi Aslanov yazırdı: "Üzbəüz həmlə nə qədər cəlbedici görünsə də, mən həmişə üstünlüyü düşmənin cinahlarına zərbə endirməyə verirəm. Düşmənin cinahlarını axtarmaq, ona ən zəif yerlərindən zərbə vurmaq asan deyildir, bunun üçün hər bir komandirdən böyük əmək, zirəklik və mətnlik tələb olunur."

Daha sonra bildirildi ki, Həzi Aslanovun tankçıları Rostov, Taqanroq şəhərlərinin azad olunmasında və Kursk vuruşmalarında çox fəal iştirak etmişlər. 1944-cü ildə Həzi Aslanovun 35-ci qvardiya tank briqadası Belarusiyanın, Pribaltika respublikalarının azad olunmasında da fərqlənmişdilər. 23-30 iyun, 1944-cü ildə "Baqration" əməliyyatında xüsusilə fərqlənərək Minsk və Borisov şəhərlərini düşməndən azad edirlər. 7 iyul 1944-cü ildə 3-cü dərəcəli Belarusiya cəbhəsinin komandanı İvan Daniloviç Çernyaxovski tərəfindən "Baqration" əməliyyatının gedişində şəxsi igidliyinə görə 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilir.

Ölümündən 47 il sonra, 21 iyun 1991-ci ildə əməkdar incəsənət xadimi, tədqiqatçı-jurnalist Musa Bağırovun zəhməti və səyləri sayəsində general Həzi Aslanova ikinci dəfə bu ad verilir.

Tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə başa çatıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Azərbaycan Respublikasında dövlətin gənclərə qayğı və diqqəti. 2 Fevral Gənclər Günüdür.*

**SUALLAR:**

**1. Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və inamı.**

**2. Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.**

**3. Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.**

*Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və inamı.*

Gənc nəslin yetişdirilməsi hər bir xalq üçün ən başlıca məsələdir. Həmçinin, dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri və yaşlı nəslin davamçısı hesab olunur, gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, baş verən bütün proseslərin mərkəzində dayanırlar.

Respublikamızın müstəqilliyinin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçməmişdi. Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olub.

Müstəqilliyimizin bərpası ilə Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyətin istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil gənclər təşkilatları yaranmağa başladı. Lakin 1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Müstəqil Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış boşluq yalnız 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı, gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz həmin dövrdən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

1993-cü il sentyabrın 23-də gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirən ulu öndər Heydər Əliyev tərəfindən 26 iyul 1994-cü il tarixdə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanın imzalanması respublika gənclərinin təşkilatlanması istiqamətində ilk addım oldu.

Cəmiyyətdə gənclərin rolunun genişləndirilməsi istiqamətində növbəti addım isə 1996-cı il fevralın 2-də ilk dəfə olaraq Müstəqil Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi oldu. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev forum iştirakçıları qarşısında çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Prezident Heydər Əliyev tərəfindən 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında Fərman imzalanması gənclərimizə göstərilən diqqət və qayğının daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II forumu keçirildi. Forumun işində iştirak edən Prezident Heydər Əliyev gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu. Forumun qəbul etdiyi sənədlər növbəti mərhələdə gənclərlə işin yeni əsaslar üzərində qurulmasını təmin etdi.

1999-cu il iyulun 29-da Prezident Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman tarixi, mənəvi-əxlaqi, mədəni dəyərlərimizin daşıyıcıları olan gənclərə diqqətin artırılması üzrə dövlət orqanlarının vəzifələrini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün gənclər siyasətini tənzimləyən "Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanuna əsasən, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi - gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmək üçün şərait yaratmaqdır.

2003-cü il oktyabrın 13-də isə Azərbaycan gənclərinin III forumu keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev isə səhhəti ilə əlaqədar forumun işində iştirak edə bilməsə də, forum iştirakçılarına məktubla müraciət etdi. Həmin müraciətdəki "Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" sözləri Azərbaycan gəncliyinə Ümummilli Lider tərəfindən verilən ən yüksək qiymətdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

- milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
- gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;
- gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;
- gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;
- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Bunlar Ümummilli Liderin müəyyən etdiyi strateji hədəflər olub ki, bu gün də Azərbaycan gəncliyi bu hədəflərə doğru inamla irəliləyir.

*Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.*

Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa olaraq, gələcəyin etibarlı təminatı olan gənc kadrların hazırlanmasından, onların intellektual və inkişaf edən qüvvəyə, cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır. Bu mənada müasir Azərbaycan dövlətinin gələcəyi işıqlıdır və zəmanətlidir. Ona görə ki, bu gün Azərbaycanda gənclər dövlət siyasətinin mühüm hissəsini təşkil edir və bu sahədə praqmatik siyasət yürüdülür.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən respublika gəncləri ilə bağlı həyata keçirilən tədbirlər müasir dövlət quruculuğu prosesində gənc nəsli daha da ön plana çəkir.

2003-cü ildə cənab İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda gənclər siyasəti mahiyyətcə yeni mərhələyə yüksəldi. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyən Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Məhz, 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Neft gəlirlərini insan kapitalına çevirən Prezident İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. Həmçinin, 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsilə gənclərin inkişafına nə qədər böyük önəm verdiyini sübut etdi. Hətta, 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsilə dövlətimizin başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətin əyani təzahürü oldu.

Eyni zamanda, Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın da gənclərə xüsusi qayğısı qeyd olunmalıdır. Məhz, birinci xanımın sədrliyilə Bakıda "Gənclərin məşğulluq sammiti"nin keçirilməsi həmin diqqətin əyani isbatı oldu.

Təkzibolunmaz faktdır ki, gənclərimizin həm Azərbaycanda, həm də xaricdə dəstəklənməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da xüsusi rolu var. Elə "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı" çoxşaxəli fəaliyyətilə gənclərimizi milli maraqların qorunması məqsədi ətrafında sıx birləşdirir və Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Gənclərin mənəvi-əxlaqi və hərbi vətənpərvərlik tərbiyəsi, onların ordu sıralarında xidmətə hazırlanması işinin gücləndirilməsi məqsədilə Gənclər, İdman və Turizm Nazirliyi digər əlaqədar qurumlarla birlikdə tədbirlər keçirir. 1995-ci ildən etibarən orta ümumtəhsil məktəblərinin IX-X sinif şagirdləri arasında "Şahin" hərbi idman oyunları, 1998-ci ildən isə VI-VIII sinif şagirdləri arasında "Cəsurlar" hərbi idman və turizm oyunları artıq dəyərli ənənə halını alıb.

*Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan Silahlı Qüvvələrimizdə öz konstitusion borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummili lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

Gənc nəslin məhz hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması xalq və dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi istiqamətində Silahlı Qüvvələrdə geniş tədbirlər həyata keçirilir. Bu baxımdan son üç il ərzində Bakı şəhərində, Bərdə, Beyləqan, Biləsuvar, Qusar, Şəmkir rayonlarında digər dövlət qurumları və ictimai təşkilatlarla birlikdə Müdafiə Nazirliyi tərəfindən təşkil olunan hərbi vətənpərvərlik tədbirləri gənc nəslin mübariz ruhda yetişdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Atılan addımlar, görülən tədbirlər bu gün artıqlaması ilə öz bəhrəsini verir. Qoşunların təmas xəttində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi məqsədyönlü dövlət siyasətinin təntənəsidir.

Azərbaycan gənclərinə gündən-günə artan dövlət qayğısı nəticəsində bu gün Silahlı Qüvvələrdə vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi kimi müqəddəs bir vəzifə durur. Bu vəzifəni yerinə yetirəcək insanlar isə birinci növbədə Azərbaycanın vətənpərvər gəncləridir.

**Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi**

*Nəsillərə nümunə*

# "Sizdən öyrənirik qəhrəmanlığı"

*Xalqımızın igid oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun xatirəsi ölkəmizdə həmişə əziz tutulur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, cəsur sərkərdənin anadan olmasının 107-ci ildönümü münasibətilə anım tədbirləri keçirilir.*

Lənkəran Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə onun ev muzeyində də anım mərasimi keçirilib. Mərasimdə zabit və əsgərlər, şəhər ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, məktəblilər iştirak ediblər. Muzeyin əməkdaşları Azərbaycanın rəşadətli sərkərdəsinin keçdiyi döyüş yolu barədə qonaqlara geniş məlumat veriblər.

Məlum olduğu kimi, Həzi Aslanov 1910-cu il yanvarın 22-də bu şəhərdə anadan olub və burada böyüyüb boya-başa çatıb.

Cəsur həmyerlimiz İkinci Dünya müharibəsi cəbhələrində böyük uğurlara imza atıb. O, bacarıqlı komandir olduğunu1941-ci ilin iyununda alman zirehli qoşunları ilə qeyri-bərabər döyüşdə sübuta yetirmişdi. Donbas ətrafında düşmənin şiddətli hücumlarını beş ay dəf etmiş, faşistləri ağır tələfata uğratmışdı.

1941-ci ilin dekabrında Həzi Aslanovun tankçıları Moskva ətrafında vuruşlarda da fərqlənməyi bacarmışdı və bu döyüşlərdə qəhrəmanlığına görə "Qırmızı Ulduz" ordeninə layiq görülmüşdü.



Sonradan onun başçılığı ilə 55-ci tank briqadasının tankçıları Stalinqrad ətrafında gedən döyüşlərdə xüsusilə fərqlənmiş, düşmənə sarsıdıcı zərbələr endirmişdilər. Həmin əməliyyatlarda Aslanov özünün taktiki yeniliyini tətbiq etmiş, cinahlardan zərbə ustası kimi uğur qazanmışdı. Bu taktiki yenilik müharibə illərində "Aslanov nalı" adı ilə məşhurlaşmışdı. Onun tankçıları vuruşa-vuruşa 40 km-dən artıq yol qət edərək Stalinqrad-Salsk dəmir yolunu tutmuş, düşməni əsas magistralından məhrum etmişdilər. Kotelnikovo yaxınlığında gedən döyüşlərdə də Aslanovun döyüşçüləri böyük şücaət göstərmiş, düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etmişdilər. Bu zaman düşmənin 30 əks-hücumu dəf olunmuş, bir taboru döyüş meydanında məhv edilmiş, 30 tankı, 50 avtomobili sıradan çıxarılmışdı. Bu hərbi əməliyyatda göstərdiyi şücaətə görə podpolkovnik (polkovnik-leytenant) Həzi Aslanov 1942-ci il dekabrın 22-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

1944-cü ilin iyulunda 3-cü Belarusiya cəbhəsinin komandanı, ordu generalı İ.Çernyaxovski Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsi ilə bağlı sənəd imzalasa da, SSRİ hərbi rəhbərliyində təmsil olunan erməni generalı İvan Baqramyan buna maneçilik törədib. Ölümündən 47 il sonra bu fakt üzə çıxarılıb və 1991-ci ildə Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Lənkəran Zabitlər Evinin nəzdində fəaliyyət göstərən məktəblilərdən ibarət "Gənc Aslanovçular" qrupu qəhrəmana həsr etdikləri bədii kompozisiyanı nümayiş etdirib. Eyni zamanda qəhrəmana həsr edilmiş şeirlər, mahnı və marşlar səsləndirilib.

**"Azərbaycan Ordusu"**

# Sərkərdənin xatirəsinə ehtiram

*Böyük Vətən müharibəsinin qəhrəmanlarından danışılanda ilk olaraq iki dəfə Sovet İttifaqı Qəhrəmanı, əfsanəvi sərkərdə Həzi Aslanov yada düşür. Azərbaycan xalqı belə cəsur qəhrəmanlarıyla daim fəxr edir. Böyüməkdə olan nəsillər igidliyi Həzi Aslanov kimi qəhrəmanlardan öyrənir.*



Yanvarın 22-si iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank-qoşunları general-mayoru Həzi Aslanovun anım günüdür. Qəhrəmanını heç vaxt unutmayan xalqımız həmin gün onun məzarı önündə mərasimlər keçirir, xatirəsini hörmətlə anır. Həzi Aslanovun dünyaya gəldiyi gündən 107 il, əbədiyyətə qovuşduğu gündən isə 72 il keçir. İllər ötsə də, qəhrəmanlar xalqın yaddaşında yaşayırlar.

...Yuxarı Kumsk rayonu ərazisində gedən döyüşdə Həzi Aslanovun komandiri olduğu alay düşmənin 45 tankını məhv etdi, 13-nü ələ keçirdi. Bundan sonra alaya qvardiya alayı adı verildi. Bu uğur generalın sərkərdəlik qabiliyyətinin bariz nümunəsi idi.

...1943-cü il fevralın 14-də Həzi Aslanovun komandiri olduğu alay Rostova çatdı. Mius cəbhəsinin yaradılmasında, 416-cı Taqanroq diviziyası ilə qarşılıqlı əlaqə şəklində Taqanroqun azad olunmasında iştirak etdi. 1943-cü ilin noyabrına kimi alay düşmənin 73 tankını, 152 topunu, 320 avtomobilini, 15 minamyot batareyasını, 14 "Ferdinant"ını, 6500-ə yaxın əsgər və zabitini məhv etdi. Bu uğurlu əməliyyata görə alay komandiri Həzi Aslanova general-mayor rütbəsi verildi.

C.Naxçıvanski adına Hərbi Liseydə də Həzi Aslanovun xatirəsi həmişə təntənə və sevgi ilə anılır. Bu günlərdə hərbi liseyin kursantları sərkərdənin Şəhidlər xiyabanındakı məzarını ziyarət etdilər.

Ziyarətdə iştirak edən kursantlardan Cəlil Rüstəmov, Abdulla Mustafayev, Məhsun Əliyev, Telman Bayramov və başqaları Həzi Aslanov kimi cəsur qəhrəmanlarla fəxr etdiklərini, Vətəni onun kimi sevəcəklərini və qəhrəmanlığı onlardan öyrəndiklərini söylədilər.

**Vahid MƏHƏRRƏMOV**

# Xəbərlər:

## hadisələr, faktlar

### Londonda dumanlı hava şəraiti ilə əlaqədar yüzə yaxın təyyarə reysi təxirə salınıb



London aeroportlarında dumanlı hava səbəbindən yüzə yaxın təyyarə reysi təxirə salınıb. Təkcə "Heatrow" aeroportunda 37 reys təxirə salınıb.

İngiltərənin cənub hissəsi tamamilə dumanla örtülüb. Reyslərin təxirə salınmasının bir müddət davam edəcəyi bildirilib. Britaniya Meteorologiya Departamentindən sərnişinlərə xəbərdarlıq edilib ki, səfərə çıxmazdan əvvəl reysləri haqqında mütəmadi olaraq məlumat alsınlar.

### Astana görüşündə Suriyada atəşkəslə bağlı razılıq əldə olunub



Suriya böhranı ilə əlaqədar Astanada keçirilən görüşdə Türkiyə, Rusiya və İran bu ölkədə hərbi əməliyyatların dayandırılması və atəşkəsin pozulması hallarına nəzarət məsələsində razılığa gəliblər.

Razılığa əsasən, bölgədə əməliyyat şəraitinə nəzarət olunması məqsədilə üçtərəfli mexanizmin qurulması qərara alınıb. Gündəlik müşahidələr nəticəsində atəşkəsin pozulması hallarına rast gəlinlərsə, Türkiyə, Rusiya və İran öz nüfuzlarından istifadə edərək əməliyyatların dayandırılması barədə münaqişə tərəflərinə təsir göstərəcəklər.

### Rusiyanın Baş naziri Dmitri Medvedev yenidən "Yedinaya Rossiya" partiyasının sədri seçilib



Rusiyanın "Yedinaya Rossiya" partiyasının Moskvada keçirilən XVI qurultayında Baş nazir Dmitri Medvedev ikinci dəfə partiyanın sədri seçilib.

D.Medvedev 2012-ci ildən "Yedinaya Rossiya" partiyasının sədridir. Partiyanın sədri açıq səsvermə yolu ilə beş il müddətinə seçilir. "Yedinaya Rossiya" partiyasının nizamnaməsinə görə, sədr vəzifəsinə partiyanın üzvü olmayan Rusiya vətəndaşı seçilə bilər.

Qurultay Boris Qrızlovu yenidən Ali Şura bürosunun rəhbəri seçib.

### İstanbul Polis İdarəsi və AKP-nin binasına hücum edən terrorçu tutulub



İstanbul Polis İdarəsi və AK Partiyasının İstanbul Vilayət Rəhbərliyinə qarşı terror hücumlarında şübhəli bilinən bir nəfər saxlanılıb.

Terrorçu İnqilabçı Xalq Azadlıq Partiyası Cəbhəsinin üzvü Şərif Tnin yaxalanması üçün İstanbulda 15 ayrı-ayrı ünvanda əməliyyat keçirilib. Terrorçu Tekirdağda polis dəstələrinin keçirdiyi əməliyyat nəticəsində yaxalanıb.

### Pakistanda partlayış nəticəsində həlak olanların sayı 25 nəfərə çatıb



Pakistanın Kurram qəbilələr vilayətindəki Paraçinar şəhərindəki meyvə-tərəvəz bazarında törədilmiş partlayış nəticəsində həlak olanların sayı 25 nəfərə çatıb. Doxsana yaxın adamın yaralandığı bildirilir.

Pakistan mətbuatının yazdığına görə, bomba bazardakı tərəvəz konteynerində gizlədilib və partlayış vaxtı bazarda çoxlu adam olub. Terrror aktına görə məsuliyyəti Pakistanda fəaliyyət göstərən "Laşkar-e Canqvi" və "Təhrik-e Taliban Pakistan" qruplaşmaları öz üzərinə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

*Fiziki hazırlıq*

# Sağlam əsgər daha güclüdür

İnsanın özünü həyatda təsdiq etməsi və bütün potensialını reallaşdıra bilməsi üçün ilk növbədə ona fiziki sağlamlıq lazımdır. Fiziki tərbiyə, şübhəsiz ki, ümumi fiziki inkişafın təmin olunmasında, fiziki kamilliyin əldə edilməsi prosesində mühüm rol oynayır.

"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsindən içəri daxil olanda ilk diqqətimi müasir standartlara cavab verən idman şəhərciyi cəlb edir. Əsgərlərimizin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularımızın qaçma, tullanma, dartınma və s. növlərdə idman etdiyinin şahidi oluruq.



Taqım komandiri baş leytenant Samir Əsgərova görə, əsgərlərin Vətənin müdafiəsinə hazırlanması prosesinin ilkin mərhələsi fiziki-psixoloji hazırlıqdır.

- Nizamnamə ilə tənzimlənən fiziki hazırlıq dərslərinə nəzarətin artırılması, şəxsi heyətin fiziki sağlamlığının qorunması və gücləndirilməsi xidmətimizin əsas tələblərindən birinə çevrilmişdir, - deyə baş leytenant Əsgərov söhbətə başlayır. - Vətənimizin müdafiəsində, əməkdə, ağlın formalaşmasında fiziki tərbiyənin böyük əhəmiyyəti vardır. Müşahidələr göstərir ki, fiziki tərbiyə ilə əhatə olunan hərbi qulluqçuların zehni qabiliyyəti də artır, əmək məhsuldarlığı yüksəlir. Biz bu keyfiyyətləri xidmət etdiyimiz hərbi hissənin təlimdə qazandığı uğurlu nəticələrdən aydın görürük. Əsgərlərə fiziki hazırlıq dərslərinin keçirilməsi, gün ərzində müntəzəm idmanla məşğul olmaları onların şəxsiyyət kimi formalaşdırılmasını təmin edir. Fiziki tərbiyə zamanı əsgərlərə aşılanan düzgün yerimək, qaçmaq, uzununa və hündürlüyə tullanmaq, kəndirə dırmaşmaq, futbol, voleybol, basketbol oynamaq bacarıqları onlara fiziki keyfiyyətlər aşılayır. Dözümlülük, çəldlik, çeviklik, güclülük, elastiklik və s. kimi xüsusiyyətlər, əlbəttə, döyüşçü üçün çox vacibdir.

Əsgər Səbuhi Nağıyev hərbi hissədə yaradılan yüksək səviyyəli şəraitə görə minnətdarlığını bildirdi. - Xidmət etdiyim müddətdə idmanla məşq etməyə əlverişli imkan yaradıldığından güləş üzrə ordu çempionu olmaq imkanı qazandım, - deyə əsgər bildirdi. - Güclü məşqlərin, səylərimin nəticəsi öz bəhrəsini verdi. 2016-cı ildə keçirilən yarışda qələbəmin sevincinə mənimlə çiyin-çiyinə xidmət edən əsgər yoldaşlarım da şərik oldular. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuşlar Vahid Qafarov, Nurlan Həsənov, Röyal Rəşidli, Ariz Nurəliyev Xəyal Rəşidli, əsgərlər Araz Qocayev, Cahid Abdullayev bildirdilər ki, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin orduya və idmana verdiyi dəstək onları yeni qələbələrə ruhlandırır.

Doğrudan da, bu gün dövlətimizin və ordu rəhbərliyinin qarşıya qoyduğu əsas məqsədlərdən biri də odur ki, hər bir əsgər idmanla məşğul olaraq, sağlamlığını möhkəmləndirməklə, fiziki mədəniyyətini artırmaqla əsas vəzifəyə - torpaqlarımızı düşmən tapdağından azad etməyə hazır olsunlar. "Sağlam bədəndə sağlam ruh olar" prinsipinə əsasən də demək olar ki, şəxsi heyətin döyüş bacarığının yüksəlməsində idmanın müstəsna rolu vardır.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi yeniliklər, ənənələr



Özüyeriyən
2S3 “Akasiya”
haubitsası

2S3 "Akasiya" 152 mm-lik özüyeriyən diviziya haubitsasıdır. Ural nəqliyyat-maşınqayırma zavodunda qüllə sxemi üzrə hazırlanıb. Haubitsa düşmənin canlı qüvvəsini, artilleriya və minaatan batareyalarını, raket qurğularını, tankları, atəş vasitələrini, idarəetmə məntəqələrini və digər vasitələrini məhv etmək üçündür. Özüyeriyən artilleriya topunun iki variantı üzərində işlər aparılıb. Onlardan biri şassi bazası əsasında hazırlanmış "Obyekt 124", o birisi isə orta tank əsasında istehsal olunmuş "Obyekt 432" variantıdır. Hər ikisinin silahlanmasına D-20 ballistikalı 152 mm-lik top daxildir və heyəti dörd nəfərdən ibarətdir. Maşının çəkisi 27,5 tondan çoxdur. Silahlanmasında 7,62 mm çaplı pulemyotdan istifadə edilir. Hər iki növü 500 at gücündə dizelli mühərriklə təchiz edilib. Şose yolda "Obyekt 124"-ün sürəti saatda 70 kilometr, "Obyekt 432"-nin sürəti isə saatda 65 kilometr təşkil edir.

"Akasiya" 2S3 özüyeriyən artilleriya qurğusu 1971-ci ildə Sovet ordusunun silahlanmasına daxil edilib. Müxtəlif illərdə yeni modelləri istehsal olunub. "Akasiya"nın daha təkmilləşmiş 2S3M1 növü öz sələflərindən fərqli olaraq üzərində panoramalı nişangah, müasir rabitə aparatı, radiostansiya, komanda məlumatlarını qəbul etmək üçün müasir aparatla təchiz edilib.

Sonraki modernləşdirmədə haubitsa 2S3M2 təyinatını alıb. Müasir avtomatlaşdırılmış "Mexanizator-M" tuşlama və atəşi idarəetmə sistemi ilə təchiz edilib. Sonuncu modernləşdirmədə artilleriya hissəsində dəyişikliklər aparıldıqdan sonra 2S3M3 indeksi altında istifadə olunub və daha güclü 152 mm-lik 2A33M haubitsasına malik olub. "Akasiya" özüyeriyən haubitsasında təlim, kassetli, mərmi-fuqas, beton deşən, kimyəvi, işıqlandırıcı, maneələrin qarşısını alan və s. döyüş sursatlarından istifadə edilir. Onun gövdəsi üç bölmədən ibarətdir: güc (motor-transmissiya), döyüş və idarəetmə. Maşının qabaq hissəsində mühərrik-transmissiya bölməsi, onun sol tərəfində isə idarəetmə orqanı ilə sürücü-mexanik yerləşdirilib, orta və arxa hissəsində isə döyüş bölməsi yerləşdirilib. Qüllədə top və heyət üçün yer də ayrılıb. Topdan atəş əllə də açıla bilər. Hazırda atəş açmaq üçün yönəldici "Santimetr" və "Krasnopol" mərmiləri hazırlanıb. Adi güllələrdən başqa "Akasiya" xüsusi nüvə döyüş sursatlarından da istifadə edə bilər. Şəxsi heyət silah qisminə tapança və pulemyotla da təchiz edilib. Onun daşınan əlavə döyüş komplektinə pulemyot, avtomat və raketlər də daxil edilib.



## Yeni SVLK-14S tüfəngi

SVLK-14S tüfəngi üç kilometrdən çox məsafəyə qədər yüksək dəqiqliklə atəş açmağa qadirdir. Rusiyanın Kaluqa şəhərində yerləşən Lobayev Arms şirkəti tərəfindən hazırlanmış tüfəngdə vahiməli snayper patronundan istifadə olunur. Silahın hazırlanmasında aviasiya alüminiumundan və aşınmaya davamlı poladdan istifadə edilib. Verilən məlumata görə, SVLK-14S silahı dünya analoqlarından fərqli olaraq daha çox uzaq məsafələrə və daha çox sıxlıqla atəş açmağa qadir olacaq. Silahın ixtiraçısı Vladislav Lobayevin sözlərinə görə, ilk növbədə bu silahla ordunun xüsusi təyinatlı bölmələri silahlandırılacaq. Snayperlər üçün konkret habarit ölçülərə malik silah olacaq. Yeni silah qarşıya qoyulan hər hansı tapşırığı yerinə yetirməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Böyüklər arasında taekvando üzrə respublika çempionatına yekun vurulub



Azərbaycan Taekvando Federasiyasının təşkilatçılığı ilə "Sərhədçi" Olimpiya İdman Mərkəzində keçirilən böyüklər arasında respublika çempionatına yekun vurulub.

Kişilərin yarışında Fizam Mehdiyev (58 kq), Məmmədəli Quliyev (63 kq), Vladislav Subbotin (80 kq), Bayraməli Vəliyev (87 kq) və Ceyhun Həsənli (+87 kq) çempion adını qazanıblar.

Qadınlar mübarizəsində isə Nərminə Məmmədova (46 kq), Patimat Abakarova (57 kq), Darya Şkurko (62 kq), Fəridə Əzizova (67 kq), Marina Tedeeva (73 kq) və Jalə Kazımova (+73 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıblar. Çempionatda komanda hesabında qalib adına "Gilan" idman klubu layiq görülüb. "Neftçi" idman klubu ikinci, Mərkəzi Ordu İdman Klubu isə üçüncü yerin sahibi olub.

## Ağır atletika üzrə yığma komandamız yerli və beynəlxalq yarışlara hazırlaşır

Ağır atletika üzrə yeniyetmə, gənc və böyüklərdən ibarət yığma komandalar təlim-məşq toplanışını davam etdirir.

AAAF park yaşayış kompleksinin təlim-məşq bazasında məşqlərini davam etdirən idmançılar qarşıdakı yerli və beynəlxalq yarışlara hazırlaşırlar.

Mütəxəssislər qeyd edir ki, düşərgədə yüksək əhval-ruhiyyə hökm sürür, verilən tapşırıqlar böyük həvəslə yerinə yetirilir.

Qeyd edək ki, əsas yığma komandanın üzvləri növbəti təlim-məşq toplanışı üçün Ukraynanın Xmelnitski vilayətinin Kamenets-Podolsk şəhərinə yollanacaq.

## Millimiz beynəlxalq turniri doqquzuncu pillədə başa vurub



FIFA-nın I vitse-prezidenti Valentin Qranatkinin xatirəsinə həsr olunmuş XXIX ənənəvi beynəlxalq turniri 1999-cu il təvəllüdlü futbolçulardan ibarət Azərbaycan yığması doqquzuncu pillədə başa vurub.

Təbriz Həsənovun rəhbərlik etdiyi komanda 9-cu yer uğrunda görüşdə Belarus yığması ilə üz-üzə gəlib. Azərbaycan yığması bu yer uğrunda mübarizə aparmaq üçün ilk olaraq İrana 1:0, ardınca Estoniyaya 3:0 hesabı ilə qalib gəlib. Millimiz həlledici matçda penaltilər seriyasında üstün olub. Uzatma dəqiqələrində vurduğu bərabərlik qolu ilə mübarizənin taleyini oyun sonrası 11 metrlik cərimə zərbələrinə saxlayan U-19 yığmamız 5:4 hesabı ilə qələbə qazanıb.

## “Telekom” voleybol komandası liderliyini qoruyub saxlayır



Yanvarın 21-də qadın voleybol komandaları arasında Azərbaycan Super Liqasının üçüncü dövrəsinə start verilib.

"Gənclik" Olimpiya İdman Kompleksində "Telekom" komandası "Azəryol"u qəbul edib. Çempionlar Liqası yarışlarında ölkəmizi təmsil edən "Telekom" komandası rəqibini 3:1 hesabı ilə məğlub edib.

Qeyd edək ki, 21 xalla "Telekom" komandası turnir cədvəlində liderliyini davam etdirir. "Azərreyl" 16 xalla ikinci, "Azəryol" isə 10 xalla üçüncü pillədə qərarlaşıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **27**
Nüsxə **4650**